# Qarabağ Azərbaycandır!

AZERBAIJAN

Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 10 (1457), 20 - 26 oktyabr 2020-ci il

Qəzet 2001-ci ildən çıxır.

## Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib



Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

Prezident İlham Əliyevin müraciəti

- Əziz həmvətənlər.

Bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri raket atəşinə məruz qalıb. Bu namərd atəş nəticəsində soydaşlarımız həlak olub, yaralanıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı soydaşlarımıza Allah şəfa versin!

Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz.

Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar. Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhidlərin, günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib. Bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir.

*(ardı 2-ci səhifədə)*



### *Birinci vitse-prezident Mehriban Əliyeva: Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm*

Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir.

Bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda deyilir:

"Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Prezident İlham Əliyev: Cəbrayıl rayonunun 13 kəndi azad edilib

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" hesabında bildirib.

### Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə təbrik edib və təbrikləri bütün şəxsi heyətə çatdırılmasını tapşırıb. General-polkovnik E.Quliyev DSX-nin şəxsi heyətinin Ali Baş Komandanın bütün tapşırıqlarını bundan sonra da layiqincə yerinə yetirəcəyini məruzə edib.

## *Bədii gimnastlar Gəncədən olan həmkarlarına mənəvi dəstək nümayiş etdiriblər*

Bədii gimnastika üzrə Azərbaycan yığma komandasının üzvləri Ermənistan silahlı qüvvələri tərəfindən raket hücumuna məruz qalmış Gəncə şəhərinə yollanıblar. Zöhrə Ağamirova, eləcə də qrup hərəkətləri komandasının üzvləri Gəncədən olan bədii gimnastlarla görüşərək onlara mənəvi dəstək olublar. Gimnastlar Gəncədən olan həmkarlarına hədiyyələr də təqdim ediblər. Daha sonra gimnastlarımız raket atəşi nəticəsində insan tələfatı və dağıntılar olan hadisə yerinə baş çəkib, həmin yerə gül dəstələri qoyublar. Yığmamızın üzvləri, həmçinin hadisə zamanı zərərçəkmiş ailələrə də baş çəkiblər.

Gimnastlarla birlikdə Gəncəyə yollanan bədii gimnastika üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Mariana Vasileva baş verənlərdən və gördüklərindən çox təsirləndiyini bildirib. "Baş verənləri şəkillərdən deyil, canlı olaraq görmək, zərər çəkən insanların yaşadıqlarını onların dilindən eşitmək tam başqa hisslər yaşadır. Xüsusilə də valideynlərini itirmiş uşaqların üzündəki kədəri görmək çox ağırdır. Bəziləri nəyin baş verdiyini belə anlamırlar. Anaların itirmiş uşaqlar isə onların hələ də qayıdacağını düşünürlər. Bu gün burada gördüklərimi heç vaxt unutmayacağam", - deyə M.Vasileva əlavə edib. M.Vasileva qeyd edib ki, bütün dünya həqiqəti bilməlidir. Azərbaycan Gimnastika Federasiyası bütün gimnastika ictimaiyyəti adından həlak olan şəxslərin yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılara isə şəfa diləyir.

### *Anons*


**Çingiz Hüseynzadə: "Azərbaycan ən böyük qələbəsini artıq qazanıb"** Səh. 3

Gəncədəki terror hadisələri şahidlərin dilindən... Səh. 4

**"Azərbaycanın güclü ordusu kimi, güclü idmançıları da var"** Səh. 5

İdman ictimaiyyəti qələbə sevincini "Olimpiya dünyası" ilə bölüşür Səh. 6

**Fiqurlu konkisürənimiz gümüş medal qazandı** Səh. 7

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

*(əvvəli 1-ci dəfə)*

Müzəffər Azərbaycan Ordusu gedən döyüşlərdə düşmənləri bizim torpağımızdan qovur və qovacaqdır. Mən demişəm ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Bizim qisasımız döyüş meydanındadır.

Bu günlər ərzində - 27-si sentyabr tarixindən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulubdur. Sadəcə olaraq, vətəndaşlarımızın diqqətinə bəzi rəqəmləri çatdırmaq istəyirəm. Bildirməliyəm ki, çatdıracağım siyahı natamamdır, düşmənin daha böyük həcmdə texnikası məhv edilib və əlbəttə ki, döyüş zamanı bunun dəqiq hesablanması mümkün deyil. Ancaq gətirəcəyim rəqəmlər əyani şəkildə göstərir ki, biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Yəni bu, sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır? Bəzi hallarda bizə qarşı iradlar irəli sürülür ki, biz silahlanırıq, biz silah alırıq və bu, elə bil ki, vəziyyəti gərginləşdirə bilər, vəziyyəti məqbul olmayan məcraya istiqamətləndirə bilər. Ancaq sual olunur, bəs Ermənistan silahlananda? Bəs, bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır və bu gün də onlara qaçaq yollarla, qaçaqmalçılıq sxemləri əsasında silahlar, texnika göndərilir və çox təhlükəli, böyük dağıdıcı gücə malik olan texnikalardır. Ona görə biz bu suallara cavab istəyirik və əminəm ki, biz bu cavabı alacağıq.

İndi isə son günlər ərzində Azərbaycan Ordusu tərəfindən məhv edilmiş Ermənistan texnikasının bir hissəsini xalqımın diqqətinə çatdırıram. Beləliklə, məhv edilmiş Ermənistan texnikası: tank - 234 ədəd məhv edilib, 36 tank hərbi qənimət kimi götürülüb, piyadaların döyüş maşını - 49-u məhv edilib, 24-ü hərbi qənimət kimi götürülüb. Özüyeriyən artilleriya qurğusu 16 ədəd məhv edilib, müxtəlif çaplı toplar 190, “Uraqan” sistemi 2, TOS odsaçan 1, əməliyyat taktiki raket kompleksi “Elbrus” 2, “Toçka-U” 1, OSA zenit raket kompleksi 35, TOR zenit-raket kompleksi 3, KUB və “Kruq” zenit raket kompleksi 5, radioelektron mübarizə sistemləri 9, S-300 zenit raket kompleksi 2, yük avtomobilləri 196-sı məhv edilib, 98-i qənimət kimi götürülüb. Hər bir adam, hər bir mütəxəssis bu texnikanın qiymətini açıq mətbuatdan götürə bilər və bu suallara biz cavab tapmalıyıq və tapacağıq.

Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!

Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir.

Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir.

Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədimi yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasını təmin etdi. Eyni zamanda, strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən bizim hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər aparırdı. İndi təbii ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik. Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik. Ondan əvvəl Cəbrayıl şəhəri işğalçılardan azad edildi. Ondan əvvəl Hadrut işğalçılardan azad edildi. Xocavənd və Cəbrayıl rayonlarının, o cümlədən Füzuli rayonunun bir çox kəndləri işğaldan azad edildi. Məhz ondan sonra biz Füzuli şəhərini işğalçılardan azad edə bilmişik.

Düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Bu gün tam məsuliyyətlə deyə bilərəm ki, Füzuli əməliyyatı hərbi kitablara daxil ediləcək. Təkcə Füzuli əməliyyatı yox, başqa əməliyyatlar. Bu gün məndə olan məlumata görə, hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur.

Bu gün tarixi bir gündür. On yeddisi oktyabr nəinki füzulililərin xatirəsində Azərbaycan dövlətinin tarixində əbədi qalacaqdır. Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib.

Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır. Bir daha Ermənistanın faşist rəhbərliyinə xəbərdarlıq edirəm ki, qalan torpaqlardan öz xoşu ilə çıxsın. Onsuz da biz onları oradan rədd edəcəyik. Onsuz da onların izi-tozu da o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik. Öz xoşu ilə getsin!

Füzulini təslim etmək istəmirdi. Halbuki başa düşürdü ki, bunu saxlaya bilməyəcək. Cəbrayılı təslim etmək istəmirdi. Dünən, srağagün və bu gecə Cəbrayıl istiqamətində də uğurlu əməliyyatlar keçirilibdir, strateji yüksəkliklər götürülübdür. Bu haqda hələ ki, mən bir şey demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Ancaq bu gün müzəffər Azərbaycan Ordusu öz məqsədinə çatır və çatacaq, bizim ərazi bütövlüyümüz bərpa edilir və ediləcək. Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz. Bunu hər kəs bilməlidir. Bizim qabağımızda heç kim dura bilməz. Çıxsın yırtıcı Ermənistan dövləti bizim torpağımızdan. Ondan sonra atəşkəs təmin edilər. Atəşkəs elan olundu, ondan bir gün keçmədi Gəncəni bombaladılar. Özü də haranı? Yaşayış massivlərini. Bu gün də haranı vurdular? Yenə də yaşayış massivlərini. Nə vaxt vurdular? Gecə saatlarında ki, daha çox insan həlak olsun.

Bu, insanlığa qarşı cinayətdir. Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq.

“Qarabağ Ermənistandır” deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən “Qarabağ Ermənistandır”. Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, “Qarabağ Ermənistandır”. Oturmusan orada - İrəvanda, oradan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən.

Niyə demirsən “Qarabağ Ermənistandır”. Qorxursan, qorxacaqsan. Bəs, Azərbaycan xalqını təhqir edəndə, “Qarabağ Ermənistandır və nöqtə” deyəndə niyə belə cəsarətli idin? Kimə güvənirdin? Kimə arxalanırdın? Bilmirdinmi ki, gün gələcək bu əməllərə görə cavab verəcəksən. Bu gün gəlibdir və gəlir. Şuşaya Livandan, başqa ölkələrdən erməniləri gətirib məskunlaşdırmaq hərbi cinayətdir, Cenevrə Konvensiyasına ziddir. Nümayişkaranə bunu edirlər, televiziyada göstərirlər, necə ki, ermənilər gəliblər bizim qədim torpağımızda yaşamağa, işləməyə. İndi baxım görüm kim gələcək Şuşaya məskunlaşmağa. Cəbrayıla yeni yol çəkirdin Ermənistandan. Nə üçün? O bölgəni, Arazboyu bölgəmizi qanunsuz yollarla zəbt edib, ondan sonra orada erməniləri məskunlaşdırmaq üçün? Bizi fakt qarşısında qoymaq istəyirdin. Ermənistanda əhali az olduğu üçün xaricdən erməniləri müxtəlif yollarla, o cümlədən onları aldadaraq gətirib orada məskunlaşdırmaq nə məqsədi daşıyırdı? Bizim tarixi torpaqlarımızı əbədi işğal altında saxlamaq, əbədi işğalı təmin etmək və bizim torpaqlarımızı erməniləşdirmək məqsədi? Baxın, onlar Füzuliyə hansısa bir eybəcər ad veriblər. Bu ad sizin başınıza dəysin. Bu ad cəhənnəmə getsin. Bu ad yoxdur artıq. Madagiz adı da yoxdur - Suqovuşandır. Biz başqa tarixi adlarımızı da bərpa edəcəyik. Şuşaya dırnaqarası qurumun parlamentini köçürürdün bəs. Get köçür, görüm necə köçürəcəksən! O saxta, quldur dəstə başçısının “andiçmə mərasimi”nin keçirildiyi yer nə gündə olub. Darmadağın etmişik oranı, darmadağın. Yeddi şərt qoyurdun bizim qarşımızda. Ultimatumla danışırdın. İndi görüm, hansı şərti qoyursan. Nə oldu bəs? Onunbunun ətəyindən yapışıb, onun-bunun ayağının altına yıxılıb imdad diləyirsən ki, Azərbaycanı durdurun. Azərbaycana deyin ki, daha dayansın. Çıx torpağımızdan dayanaq. Rədd ol torpağımızdan dayanaq. Mən bunu demişəm, gizlətmirəm. Azərbaycan xalqı da bunu bilir, beynəlxalq aləm də bunu deyir. Hər gün bunu deyirəm, çıx de ki, sabah mən buradan çıxıram, dayanırıq. Bizə qan tökmək lazım deyil. Bizə torpaq lazımdır. Biz bu torpağı istənilən yolla alacağıq. Hər kəs bunu bilsin. Artıq son günlərin tarixi bunu göstərir.

Azərbaycan xalqını təhqir etmək sizə çox baha başa gəlir, Ermənistan rəhbərliyi, çox baha başa gəlir. Ermənistan əhalisi, nəhayət, bu kriminal rejimin başçılarını məsuliyyətə cəlb etməlidir. Artıq Ermənistanda hərbi komissarlıqlarda mitinqlər təşkil edilir, analar yolları kəsir, qoymurlar ki, uşaqları getsin başqa ölkənin torpağında ölsün. Mən də erməni xalqına müraciət etmişdim və bir daha müraciət edirəm: Qoymayın uşaqlarınızı! Nə işi var onların bizim torpağımızda? Öz ölkənizdə yaşayın. Bizim sizinlə heç bir işimiz yoxdur. Gedin yaşayın öz ölkənizdə, nə edirsiniz edin, amma bizim torpaqdan çıxın. Əminəm ki, erməni xalqı da öz cinayətkar xunta rejimi başçılarını məsuliyyətə cəlb edəcək. Biz isə haqq yolundayıq, ədalət yolundayıq. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!

Biz döyüş meydanında gücümüzü göstərdik, həm düşmənə, həm də bütün dünyaya. Döyüş meydanında göstərdiyimiz güc və onun mənbəyi Azərbaycan xalqının iradəsidir, Azərbaycan xalqının istedadıdır və bizim əldə etdiyimiz uğurlardır.

Bir daha demək istəyirəm ki, biz xoşbəxt insanıq, bizim nəslimiz xoşbəxtdir ki, bu sevincli günləri görə bilirik. Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik.

Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!



# Qarabağ Azərbaycandır!

***Qarabağ uğrunda hər gün gərgin döyüşlər gedir. İşğal altında olan əzəli torpaqlarımızın azad edilməsi uğrunda qəhrəman xalqımızın şanlı Ordusu misilsiz rəşadətlər göstərərək, böyük qələbələr qazanır. Demək olar ki, hər gün Ali Baş Komandan işğaldan azad olunan rayonların və kəndlərimizin adlarını elan edir. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" amalına köklənən xalqımız dövlətimizin və Ali Baş Komandanın ətrafında sıx birləşib. Böyük Vətən Müharibəsinin bizim qələbəmizlə başa çatacağına, işğalçı erməni terrorçularının son nəfərinə qədər torpaqlarımızdan qovulacağına əmin olan xalqımız bütün diqqətini cəbhəyə yönəldib.***

***Belə bir şanlı tarixi məqamda Azərbaycanda idmanın və Olimpiya Hərəkatının inkişafında müstəsna rolu olan Milli Olimpiya Komitəsi (MOK) Ali Baş Komandan İlham Əliyevin çağırışına qoşulub, rəşadətli Ordumuza dəstək verir. Belə ki, Azərbaycan həqiqətlərinin dünyaya, xüsusilə beynəlxalq idman ictimaiyyətinə çatdırılmasında Milli Olimpiya Komitəsi də səmərəli fəaliyyət göstərir.***

***MOK-un vitse-prezidenti Çingiz Hüseynzadənin müsahibəsində bu məqamlar öz əksini tapıb. Həmin müsahibəni oxucularımıza təqdim edirik.***



## Çingiz Hüseynzadə:

# "Azərbaycan ən böyük qələbəsini artıq qazanıb"

***- Çingiz müəllim, oktyabrın 1-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti olaraq, beynəlxalq idman qurumlarına cəbhədə baş verən hadisələrlə bağlı müraciət ünvanladınız. Aldığımız məlumata görə bu müraciətə əlaqədar qurumlar tərəfindən münasibət bildirilib. Bu barədə məlumat verərdiniz.***

- Bəli, bu barədə Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitəsinin, Milli Olimpiya Komitələrinin Assosiasiyasının, İslam Həmrəyliyi İdman Federasiyasının rəhbər şəxslərinə müraciət ünvanladıq. Müraciətdə Ermənistanın 26 ildən artıq müddətdə davam edən sülh danışıqlarını kobudcasına pozması, son illərdə Azərbaycan xalqına və dövlətinə qarşı təxribatların törədilməsi, sentyabrın 27-dən başlayaraq işğal olunmuş Azərbaycan əraziləri ilə həmsərhəd bölgələrdə atəşkəs rejiminin kobud şəkildə pozulması, o cümlədən yaşayış ərazilərinin Ermənistan hərbi qüvvələri tərəfindən ağır artilleriya atəşi və raket hücumuna məruz qalması qeyd olunurdu. Biz Ermənistanın beynəlxalq prinsiplər və Olimpizm dəyərlərinə zidd olan bu hərəkətlərinin idman ictimaiyyəti arasında kəskin etiraza səbəb olduğunu da diqqətə çatdırmışdıq. Müraciətdə Ermənistan tərəfinin insanlıq əleyhinə yönəlmiş çoxsaylı təcavüzkar hərəkətləri pislənilirdi. Beynəlxalq təşkilatları ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün, Azərbaycanın beynəlxalq hüquq və prinsiplər çərçivəsində haqlı mövqeyini dəstəkləməyə çağırırdıq.

Bu müraciətimizə münasibət bildirən qurumların və məsul şəxslərin sayı artmaqdadır. Müraciətə cavab olaraq, MOK-un əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar Azərbaycanla Ermənistan arasındakı vəziyyətin, tezliklə siyasi və sülh yolu ilə ədalətli həllinin tapılacağına ümid etdiklərini vurğulayıblar.

***- Həmişə idmanı siyasətdən kənar hesab edirlər. Amma idman bütün sahələr arasında beynəlxalq səviyyədə əhatə dairəsinə, kütləviliyinə görə bəlkə də birincilər sırasındadır. Bu baxımdan torpaqlarımızın erməni işğalından azad edilməsi ilə bağlı beynəlxalq idman təşkilatlarının da rəyi vacib idi.***

- Bilirsiniz ki, Olimpiya Hərəkatı doğurdan da, bitərəf hərəkatdır. İdman siyasətdən kənardadır. Bir çox hallarda bunun şahidi də olmuşuq. Yadınızdadırsa, 2015-ci ildə Bakıda I Avropa Oyunları keçiriləndə bir çox maraqlı qüvvələr bizə qarşı çıxmışdılar. Bu Oyunların keçirilməsinə mane olmaq istəyirdilər. Lakin Beynəlxalq Olimpiya Komitəsi və Avropa Olimpiya Komitəsi bu maneələrə baxmayaraq, bu mötəbər tədbirin Bakıda keçirilməsinə nail oldu. Bu baxımdan Azərbaycanın erməni işğalı altında olan torpaqlarını azad etmək uğrundakı haqq mübarizəsi ilə bağlı beynəlxalq idman qurumlarına müraciət göndərəndən sonra onların bizə verəcəyi cavab əhəmiyyətli idi. Çünki onlardan hər hansı bir tərəfin dəstəklənməsini gözləmirdik. Bir daha əmin olmaq istəyirdik ki, onlar doğrudan da ədalətin, haqqın tərəfindədirlər və sülhün tərəfdarıdırlar. Bizi dəstəkləyən, hətta dəstəkləməyən müxtəlif səviyyəli beynəlxalq qurumlar da yaxşı bilirlər ki, bu müharibədə Azərbaycan birmənalı olaraq, ədalətli tərəfdir. Müraciətdən əlavə mən idman sahəsində böyük nüfuzu olan insanlarla da danışmışam. Hamı bu hadisələrdən xəbərdardır və Azərbaycanın haqq işini dəstəklədiklərini bildirirlər.

### "Əminik ki, Azərbaycan mütləq qələbə qazanacaq"

***- Pandemiya dövründə bütün dünyada idman tədbirlərinin keçirilməsi səngisə də, təbii ki, həyat davam edir və tezliklə həm ölkə, həm də beynəlxalq idman tədbirlərinin keçirilməsinə başlanacaq. Bu yarışlarda Azərbaycan idmançıları bəzən erməni rəqibləri ilə yenə də üz-üzə gələcəklər. Yəqin ki, ermənilərin müharibədəki məğlubiyyəti onların aqressiv və təxribatçı xarakterini daha çox üzə çıxaracaq.***

- Əlbəttə, müharibə gec-tez bizim qələbəmizlə başa çatacaq. İdman yarışlarında isə bu "müharibə" davam edəcək. Müharibə başlamazdan əvvəl də belə gərginlik həmişə tərəflər arasında olub. Biz də hər hansı bir yarışa yollananda və biləndə ki, burada erməni idmançıları da ola bilər, belə halda etibarlı təhlükəsizlik işlərini görməliyik. Təxribatçılıq ermənilərin qanındadır. Milli Olimpiya Komitəsi ev sahibliyi etdiyimiz beynəlxalq yarışlar zamanı əlaqədar təşkilatlarla birlikdə erməni təxribatının qarşısını almaq üçün lazımi tədbirlər həyata keçirir. Ermənilər hər hansı bir dırnaqarası səbəblə arenalarda təxribata cəhd edə bilərlər. Mən həmişə demişəm ki, bu təxribatların qarşısını almağın yeganə yolu idman yarışlarında onlara qalib gəlməkdir. Elə Böyük Vətən Müharibəsində də ermənilərə qalib gəlməklə, onların xaincəsinə törətdikləri təxribatların qarşısını alacağıq. İndi müharibədən, qələbələrdən danışırıq. Hesab edirəm ki, artıq Azərbaycan ən böyük qələbəsini qazanıb. Azərbaycan öz qürurunu özünə qaytarıb, döyüş meydanlarında özünün şanlı tarixini yazır. Azərbaycan əsgəri misilsiz qəhrəmanlıqla öz qanı, canı bahasına torpaqlarımızı erməni işğalından azad edir və sonadək azad edəcək. İgid əsgərlərimiz arasında ölkəmizin idman ictimaiyyətinin nümayəndələri də var. Bu, çox əhəmiyyətli bir məsələdir. Hərdən biz görürdük ki, Azərbaycan idmançısı erməni rəqibi ilə yarışlara çıxanda özünü bir o qədər də qürurlu hiss etmirdi. Biz bu qələbəni qazandıq, artıq idmançılarımız yarışlara qürurla çıxacaqlar. İdmançımız erməni ilə yarışa çıxanda qisas almaq istəyirdisə, indi daha çox güclü olduğunu rəqiblə mübarizədə təsdiq edəcək. Bu imicin formalaşması həm idmançılarımız, həm də Azərbaycan xalqı üçün çox vacib idi.

***- Əlbəttə, bizim güclü idmançılarımız hər zaman olub.***

- Yeri gəlmişkən, bir məqam yadıma düşdü. İdmançılarla görüşlərin birində ulu öndər Heydər Əliyev demişdi: "Mən SSRİ dövründə Moskvada çalışanda soruşdum ki, SSRİ yığma komandalarının tərkibində niyə azərbaycanlı idmançılar yoxdur? Mənə cavab verdilər ki, azərbaycanlılar idmana meylli deyillər. Onların idman bacarıqları yoxdur". Ümummilli lider məhz ikinci dəfə hakimiyyətə gəldikdən sonra idmana xüsusi diqqət yetirdi. 1997-ci ildə cənab İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra biz dünyaya sübut etdik ki, Azərbaycan xalqı idmana meyllidir və Azərbaycan idmançıları güclüdürlər. Biz bu gün də sübut etdik ki, xalqımız və Ordumuz güclüdür. Haqq işi uğrunda mübarizəmizdə ermənilərin özlərinin güclü olması ilə bağlı fikirlərini də darmadağın etdik.

***- Çingiz müəllim, Orduya yollanmaq üçün könüllü müraciət edən gənclərimizin sayı yetərincədir. Onların arasında idmançılara da rast gəlirik. Bu o deməkdir ki, Azərbaycan idmançısı özünü bu dəfə əsl döyüşdə sübut etmək istəyir. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı.***

- Hazırda döyüşlərə könüllü yollanan gənclərimizdə vətənpərvərlik ruhu çox yüksək səviyyədədir. Onlar bu mübarizədə qalib gəlmək, Azərbaycan bayrağını yüksəltmək əzmindədirlər. Azərbaycan idmançısı bütün həyatı boyu ölkəmizin idman şərəfini qorumaqla məşğul olub. Bu gün isə Azərbaycan idmançısı Vətənin özünü qorumaqla məşğuldur. Bu təbii haldır ki, belə bir şərait yarananda, Vətən uğrunda mübarizə başlayanda idmançılar da ön cəbhəyə getməlidirlər. Əgər cənab Prezident hər bir azərbaycanlının prezidentidirsə, idmançıların ikiqat prezidentidir. Çünki cənab Prezident həm də bizim idman hərəkatımızın rəhbəridir. Hər bir idmançı idmanda qazandığı uğurlarına görə cənab Prezidentə borcludur. Məhz buna görə də, onların ruh yüksəkliyi çox böyükdür. Mən cəbhədə olan idmançılarımızın adlarını çəkmək istəmirəm. Onların arasında şəhid olan, yaralanan idmançılarımız da var. Bizim şəhidlərimizin ruhu şad olsun! Biz Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi və müxtəlif idman federasiyaları olaraq Ordumuza dəstək olmağa çalışırıq.

### ""Qarabağ" dünyada yeganə klubdur ki, bu klubun ərazisi işğal olunub"

***- Qarabağ sözünü dünyada həm də Ağdamın "Qarabağ" futbol klubu tanıtdı. Hətta bəzən xarici ölkə mətbuatında belə yazılar gedir ki, dünyada öz şəhərində oynamayan yeganə futbol klubudur. Qarabağ - bu adı daşıyan Ağdam klubunun uğurlarının həqiqətləri dünyaya çatdırılmasında rolunu necə qiymətləndirirsiniz?***

- "Qarabağ" futbol klubu bizim uğurumuzdur. Komanda öz oyunu ilə həm Azərbaycan xalqını, həm də Azərbaycandan kənarda olan azarkeşlərini sevindirir. Biz ümid edirik ki, müharibə tezliklə başa çatacaq və biz "Qarabağ" futbol klubunun ən böyük təntənəsini Ağdam stadionunda qeyd edəcəyik. Siz qeyd etdiniz ki, bu bəlkə də dünyada yeganə klubdur ki, öz ərazisində, öz şəhərində, öz stadionunda oynamır. Mən bunu başqa cür deyərdim. "Qarabağ" dünyada yeganə klubdur ki, bu klubun ərazisi işğal olunub. Yəni işğal şəraitində, bu qədər gözəl oyun nümayiş etdirən bir klubdur. Bizim üçün çox maraqlı və simvolik bir hadisə olardı ki, müharibə qurtaran kimi Qarabağda yeni bir stadion inşa olunsun, "Qarabağ" ən vacib oyunlarını məhz bu stadionda keçirsin və artıq "Qarabağ-Ağdam - Azərbaycan" yazılsın.

***- Çingiz müəllim, məlumdur ki, Tokio Yay Olimpiya Oyunları pandemiya səbəbindən bu il təxirə salındı. Planetin ən böyük idman tədbirinin növbəti il keçirilməsi ilə bağlı qərar verildi. Sizcə Olimpiadanın keçirilməsi ilə bağlı hansı məsələlər müzakirə olunur?***

- Burada məsələ çox qarışıqdır. Bu il ümid var idi ki, oktyabr-noyabr aylarında təsnifat yarışları başlasın. Lakin koronavirus yenidən buna mane oldu. Bilirsiniz ki, Olimpiadaya ev sahibliyi edəcək Yaponiyada hakimiyyət dəyişikliyi baş verdi. Ölkədə yeni baş nazir seçildi. Yeni baş nazir Olimpiya Oyunlarının nəyin bahasına olursa-olsun keçiriləcəyində israrlıdır. Bu idman tədbiri mütləq keçiriləcək. Amma necə və hansı şəraitdə, bax bu hələ məlum deyil. Hər şey koronavirusun həmin anda hansı səviyyədə olacağından asılıdır.

***- Çingiz müəllim, Milli Ordumuz döyüş meydanlarında düşmənə qalib gələrək torpaqlarımızı hissə-hissə erməni işğalçılarından azad edir. Ermənilər isə bu məğlubiyyətin acısına dözməyərək, öz xain xislətlərinə sadiq qalaraq sərhəd bölgəsindən uzaqda yerləşən şəhər və rayonlarımızı, kəndlərimizi raket atəşinə tuturlar. Mülki əhaliyə qarşı törədilənlər hərbi cinayət və terror hadisələridir. Ölkəmizin ikinci böyük şəhəri olan Gəncənin iki dəfə ermənilərin raketlə terror hücumuna məruz qalması, itkilərimizin olması, bütövlükdə Ermənistanın bütün dünyada terrorçu dövlət kimi tanınması üçün yetərli deyilmi?***

- Əgər qadağan olunmuş raketlərlə terror hücumları dövlət səviyyəsində aparılırsa, bunun başqa bir adı varmı? Cəbhə bölgəsində nə baş verib-verməməsindən asılı olmayaraq, Ermənistan mahiyyət etibarilə birmənalı olaraq, terrorçu dövlətdir. Əlbəttə, mülki əhalinin yaşadığı Gəncəyə və digər yaşayış məntəqələrimizə xain düşmən hücumlarını qətiyyətlə pisləyirik. Bu vəhşiliklər yolverilməz hərbi cinayətlər və terrordur. Hesab edirəm ki, bütün tərəqqipərvər bəşəriyyət ermənilərin dinc əhaliyə qarşı həyata keçirdiyi bu terrora görə öz haqq səsini qaldırmalıdır. Terrorçunu müdafiə etmək, öz etiraz səsini qaldırmamaq ümumbəşəri dəyərlərə arxa çevirməkdir. Hətta bir günahsız insanın belə terror nəticəsində ölümü insanlıq üçün fəlakətdir. İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuz döyüş meydanlarındakı qələbələri davam etdirərək, bütün işğal altındakı torpaqlarımızı tezliklə azad edəcək, erməni terrorçularını doğma torpaqlarımızın ərazisindən birdəfəlik qovacaqdır. Qarabağ Azərbaycandır!



# Qarabağ Azərbaycandır!

# Gəncədəki terror hadisələri şahidlərin dilindən...

***Öz təcavüzkar siyasətini davam etdirən işğalçı Ermənistan Ordusu Azərbaycan Respublikasının mülkü əhalisinin sıx məskunlaşdığı yaşayış məntəqələrini mütəmadi olaraq məqsədli şəkildə raket atəşinə tutur. Bunun ən acı nəticəsi isə ölkənin ən böyük ikinci şəhəri Gəncədə baş verən terror hadisəsi oldu.***

***Oktyabrın 11-də və 17-də işğalçı Ermənistan ordusunun raket zərbələri nəticəsində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binaları dağılıb, mülki obyektlərə ciddi ziyan dəyib. Son terror aktları nəticəsində Gəncə şəhərində ümumilikdə 23 nəfər həlak olub, 83 dinc sakin ağır yaralanıb, şəhərə külli miqdarda ziyan dəyib. Qəzetimizin ötən sayında terror hadisəsinə kəskin reaksiya bildirən Gəncə idmançılarının fikirlərini oxucularımıza təqdim edirik. "Olimpiya dünyası" qəzeti olaraq, düşmənin mülkü insanlara qarşı törətdiyi vandalizmi gündəmdə saxlamaq üçün budəfəki sayımızda oxucularımıza dağıntılara məruz qalan Gəncə şəhər sakinlərinin fikirlərini təqdim edəcəyik. Bu gün əminliklə demək olar ki, Gəncə Ermənistanın dövlət terrorizmi və vandalizminə qarşı müqavimət rəmzinə çevrilib. Elə Gəncə sakinlərinin məğrur sözləri də bunu bir daha sübut etdi.***



## "Bircə onu gözləyirdim ki, dağıntılar üstümü örtməsin, nəfəs ala bilim"

***Emin Mustafayev (Veteran futbolçu, dağıntılar altından xilas edilən Gəncə şəhər sakini):***

- Hadisə gecə saatlarında olduğu üçün yatmışdım. Təsəvvür edin ki, yatdığın yerdə bir anda evin uçulur və dağıntılar altında qalırsan. Bircə onu gözləyirdim ki, dağıntılar üstümü örtməsin, nəfəs ala bilim. Dağıntı dayanandan sonra gördüm ki, nəfəs almaq üçün cüzi də olsa yer var. Hərəkət edə bilmirdim. Qışqıraraq ailəmi, uşaqları soruşdum. Həmin vaxtı ilk olaraq əraziyə yaxın yerdə qalan şəhər sakinləri bizə köməklik etdilər. Tez bir zamanda isə Fövqəladə Hallar Nazirliyinin əməkdaşları və polis işçiləri də köməyə gəldilər, məni və ailə üzvlərimi dağıntılar altından çıxardılar. Evin tavanı demək olar ki,bizi ölümdən xilas etdi. Möcüzə sayəsində sağ qaldıq. Yoldaşım və oğlum bədən xəsarətləri almışdılar. Özüm isə həmin günü heç bir ağrı hiss etmirdim. Növbəti gün isə belimdə və ayaqlarımda güclü ağrılar başladı. Hadisə hələ də gözümün qabağındadır. Çox dəhşətli mənzərə idi. Qonşumuzda yaşayan bir ailə demək olar ki, məhv oldu. Yalnız balaca bir qız uşağının həyatını xilas etmək mümkün oldu. Hadisədən sonra qohumumuzun evinə köçdük. Lakin oktyabrın 17-də atılan növbəti raket mərmisi bizim də müvəqqəti qaldığımız qohumumuzun evinin yaxınlığına düşdü. Hadisə zamanı yaralanan olmasa da mənzilə çox ciddi zərər dəydi. Bir sözlə, öz gözlərimlə hər iki raket atəşinin şahidi oldum. Bu terroru şiddətlə qınayıram. Ermənilər Gəncəni raket atəşinə tuturlar ki, burada yaşayan sakinlər qorxub qaçsınlar. Amma bu, mümkün olmayacaq. Biz heç vaxt öz doğma şəhərimizi tərk etməyəcəyik. Sağ olsunlar hadisədən sonra bizə dövlətimiz tərəfindən yardımlar və digər köməklik olundu. Dövlətimizin dəstəyini bu gün də sözün həqiqi mənasında hiss edirik. İnanırıq ki, Ordumuz qalib gələcək və bu hadisələrin intiqamı alınacaq.



## "Ermənilər dinc sakinləri hədəfə almaqla öz qorxaqlıqlarını, acizliklərini göstərirlər"

***Sahil Abdullayev (Veteran futbolçu, dağıntılar altından xilas edilən Gəncə şəhər sakini):***

- Hadisə zamanı yatmışdım. Amma böyük oğlum digər otaqda futbola baxırdı. Dağıntılardan sonra ailə üzvlərim şfonerin altında qalmışdılar. Əvvəlcə özüm çətinliklə də olsa üzərimdəki daş və taxta qalıqlarını kənara atıb ayağa qalxdım. Sonra şfonerin altında qalan oğlumu Fövqəladə Hallar Nazirliyinin və polis əməkdaşlarının köməyi ilə dağıntıların altından xilas etdik. Oğlumu təcili yardım maşını ilə xəstəxanaya apardılar, özüm isə hadisə yerində qaldım. Hələ ki, qohumumuzun evində məskunlaşmışıq. Ev əşyaları ilə birlikdə kirayə mənzil tapan kimi, ora köçəcəyik. Çünki hadisədən sonra əşyalarımız dağıntılar altında qaldı. Təkcə sənədlərimizi tapıb çıxarmaq mümkün oldu. Burada yaşayanlar dinc sakinlərdirlər, hərbçilər deyil. Ermənilər dinc sakinləri hədəfə almaqla öz qorxaqlıqlarını, acizliklərini göstərirlər. Mənim bir oğlum hazırda hərbi xidmətdədir və cəbhə xəttində düşmənə qarşı mübarizə aparır. Düzdür, evimizin dağılması bizi təəssüfləndirir. Amma evi sonra yenidən qurmaq da olar. Təki Ordumuzun gənc əsgər və zabitləri bu savaşdan sağ-salamat öz ailələrinin yanına qayıtsınlar.

## "Bu mənzərə mənə Xocalı soyqırımını xatırlatdı"

***Maya Məmmədova (Gəncə şəhər Tibbi Bədən Tərbiyəsi Dispanserinin böyük tibb bacısı):***

- Artıq növbəti dəfədir ki, Gəncə şəhəri raket atəşinə məruz qalır. Sonuncu baş verən terror hadisələri isə hər kəskin ürəyini dağladı. Düşmənin atdığı raket mərmisi evimizdən bir qədər aralıda yerləşən əraziyə düşdü. Hadisə zamanı böyük oğlum həyətdə idi. O, güclü partlayış səsini eşitməsi və evin silkələnməsini görüb raketin bizim evə düşdüyünü zənn etdi. Bildirim ki, mənim iki oğlum var və onların hər ikisi polis əməkdaşıdır. Dümənin törətdiyi terror aktı zamanı kiçik oğlum gecə növbəsində idi. Partlayışdan sonra hər iki övladım hadisə yerinə cəlb olundular. Raket atılan binanın sakinlərinin hamısı dağıntılar altında qalmışdılar. Bir qədər uzaqda olan insanlar isə yüngül xəsarət almışdılar. Dərhal hadisə yerinə gələn Fövqəladə Hallar Nazirliyinin əməkdaşları xilasetmə işlərini yerinə yetirirdilər. Bu, həqiqətən də, dəhşətli görüntü idi. Bu mənzərə mənə Xocalı soyqırımını xatırlatdı. İnsanların yaxınlarını, dağıntılar altında axtarması, körpələrin ağlamaq səsləri, valideynlərini itirən uşaqların harayı ürək parçalayırdı. Həmin anları heç bir sözlə ifadə etmək mümkün deyil. Etiraf edim ki, biz bu gün də, doğma şəhərimizdə, evimizdə həyəcan içərisində yaşayırıq. Bütün dünya erməni silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi vəhşiliyin, vandalizmin bir daha şahidi oldu. Onlar bu hərəkətlərlə hansı xislətə sahib olduqlarını bir daha bütün dünyaya göstərdilər. Amma buna baxmayaraq, biz qüdrətli Ordumuzun torpaqlarımızı düşməndən azad edəcəyinə, terror zamanı dünyasını dəyişən bütün insanların və şəhidlərimizin qısasını alacağına inanırıq.

## "Bu terror Ermənistanın əsl simasını bir daha sübut etdi"

***Vidadi İsmayılov (Keçmiş hərbçi, Gəncə şəhər 29 saylı orta məktəbin hərbi müəllimi):***

- Ermənistan silahlı qüvvələrinin müharibə bölgəsindən xeyli aralıda yerləşən Gəncə şəhərinə raket mərmisi atması insanlığa ziddir. Raket mərmisi yaşadığımız yerin yaxınlığına düşdü. Nəticədə 20-ə yaxın evin məhv olması ilə yanaşı, yaranan zərbənin təsirindən bir qədər uzaqda yerləşən obyektlərə də ziyan vurdu. Möhkəm partlayış səsi gəldi. Ailəm üçün çox narahat oldum. Yəqin bilirsiniz ki, bina evində ən təhlükəsiz yer qapıların astanası hesab olunur. Buna görə də, ailəmlə birgə orada dayandıq. Partlayış həqiqətən də çox güclü idi. Evin qapıları, pəncərələri yerindən çıxmışdı. Zərbə nəticəsində müəllim işlədiyim məktəbə də ciddi ziyan dəyib. Məktəbin bütün pəncərələrinin şüşələri sınıb, qapı və pəncərələr yerindən çıxıb. Düzdür, həlak olan insanları, onların yaxınlarının çəkdiyi əziyyəti görmək hər birimizi kədərləndirir. Lakin keçmiş hərbçi kimi, demək istəyirəm ki, bu terror hadisəsi sadəcə olaraq, Ermənistanın əsl simasını bir daha sübut etdi. Əminəm ki, Azərbaycan Ordusu bu təxribatlara getməyəcək və müharibə bölgəsində əldə etdiyi üstünlüyü qoruyub saxlayacaq.

## "Biz Gəncəni tərk etməyəcəyik!"

***Qəzənfər Əliyev (Gəncə şəhər sakini):***

- Partlayış yaşadığımız binadan biraz aralıda baş verdi. Pəncərələrin və çılçıraqın silkələnməsinə oyandım. Nə baş verdiyini anlamaq üçün tez pəncərədən baxdım və havaya tüstü qalxdığını gördüm. Düşmənin yenidən şəhəri bombalamasından qorxub, ailəmlə birgə yaşadığımız binanın dördüncü mərtəbəsindən həyətə düşdük. Binada yaşayan qonşularımız da zərbənin təkrarlanacağını ehtimal edib, həyətə toplaşmışdılar. Hər kəs həmin ərazidə dağıntılar altında qalan insanlara dua edirdi. Təbii ki, hər birimiz bilirik ki, hazırda ölkəmiz müharibə şəraitindədir. Lakin müharibə, döyüş bölgəsində gedir. Gəncə şəhəri isə bu zonaya daxil deyil, burada mülki insanlar yaşayırlar. Düşmənin bilərəkdən ölkənin müxtəlif şəhərlərində yaşayan dinc sakinləri hədəfə alması, onların acizliyini, vəhşiliyini göstərir. Düzdür, həmin vaxt hər birimiz körpələrimiz, qadınlarımız üçün çox qorxduq. Amma bu o demək deyil ki, düşmənin çarəsizlikdən əl atdığı təxribatına görə biz bu şəhərdən gedəcəyik. Biz Gəncəni tərk etməyəcəyik! Bura bizim illərdir yaşadığımız, doğma şəhərimizdir və düşmən ölkənin ikinci ən böyük şəhərinə hücum etməyin cavabını mütləq verəcək.

## "Bura bizim doğma şəhərimizdir, evimizdir və buradan heçyerə getməyəcəyik"

***Qulam Hüseynov (Gəncə şəhər sakini):***

-Yaşadığımız bina raket atılan binadan təxminən 100 metrə uzaqda yerləşir. Güclü partlayış səsi eşitdim və elə həmin an pəncərələrin şüşələri sındı, qapılar yerindən çıxdı. Sınan şüşələrin bir hissəsi 5 yaşlı övladımın üzərinə töküldü. Xoşbəxtlikdən oğlum bu hadisədən yüngül xəsarətlərlə xilas oldu. 3 yaşlı övladım isə qorxu içərisində idi və nə baş verdiyini anlamırdı. Təşviş içərisində ailəmlə birgə binanın həyətinə düşdük. Ərazidə olan insanlar hamısı bir yerə toplaşmışdılar. Onlar sözlə ifadə ediləməyəcək bir dəhşətə şahidlik edirdilər. Binanın bütün evlərinin pəncərələri sınıb, bəzi evlərin əşyaları yararsız hala düşüb. Hətta qonşuluqda yaşayan elə ailə var ki, pəncərə bütövlükdə övladının üzərinə düşüb və uşaqları dağıntının altında qalıblar. Günahsız insanların belə vəhşiliklə qətlə yetirilməsi həqiqətən də sözün bitdiyi andır. Gəncə sakinləri isə təbii ki, bu təxribatlardan qorxmurlar və şəhərdə yaşamağa davam edirlər. Bura bizim doğma şəhərimizdir, evimizdir və buradan heç yerə getməyəcəyik. Mən ümid edirəm ki, tezliklə ermənilərin illərdir Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliyi bütün dünya görəcək və onların əsl terrorçu olduğunu hər kəs biləcək.

***Azər Əlizadə,***
***Türkay Niftəliyeva***



# Qarabağ Azərbaycandır!

***Ordumuzun hər gün bizə bəxş etdiyi zəfər müjdələri tezliklə üçrəngli bayrağımızın Şuşada, Xankəndidə dalğalanacağından xəbər verir. Güclü və intizamlı Azərbaycan Ordusu illərdən bəri işğal altında qalan ərazilərimizi işğalçılardan təmizləyir. Bəli, Ordumuz bu gün güclü və intizamlıdır. Bunu bir zaman Silahlı Qüvvələrdə xidmət etmiş zabitlər də təsdiq edirlər. Bugünlərdə hərbi ekspert, keçmiş korpus komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirovla görüşüb, söhbət etdik. Vaxtilə Müdafiə Nazirliyində idarə rəisi, daha sonra Azərbaycan Silahlı Qüvvələrinin Çin Xalq Respublikasındakı Azərbaycan Səfirliyində attaşe olan Yaşar Aydəmirov hal-hazırda ehtiyatdadır. Heydər Əliyev adına Silahlı Qüvvələr Akademiyasında Hərb Məharəti fənnindən dərs keçən müsahibimiz bizi maraqlandıran suallara aydınlıq gətirdi.***

## Yaşar Aydəmirov:

## "Azərbaycanın güclü Ordusu kimi, güclü idmançıları da var"

***- Cənab general, bir hərbi ekspert kimi bu müharibə haqqında fikirlərinizi bilmək istərdik.***

- Məlumdur ki, sentyabrın 27-dən etibarən Ermənistan Silahlı Qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq, iriçaplı silahlardan və artilleriya qurğularından Ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi atəşə tutmağa başladı. Azərbaycan Ordusu tərəfindən hərbi təxribata cavab olaraq, əks-hücum əməliyyatlarına başlanıldı. Belə ki, ermənilər həm də dövlət sərhədi - Tovuzun Ağdam kəndi istiqamətində yaşayış məntəqələrini də atəşə tuturdular. Onlar kəşfiyyat-diversiya qruplarının fəaliyyətindən yararlanırdı. Buyaxınlarda Azərbaycan Ordusu həmin qrupları darmadağın etdilər və onların erməni əsilli komandiri, baş leytenantı əsir götürüldü. Yaşayış məntəqələri intensiv atəşə tutulurdu. Məhz buna görə də Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusuna Ermənistan silahlı qüvvələrinə qarşı əks-hücum əməliyyatlarının keçirilməsi əmri verildi. Əks-hücum əməliyyatları nədir? Belə ki, orduda xırda bölmələr həmlə və əks-həmlə keçirlər. İri hissə və birləşmələr isə hücum əməliyyatları keçirir. Biz buna hücum əməliyyatları demirik. Çünki bu təxribatların qarşısını almaq üçün Ordumuz əks-hücum əməliyyatlarına başladı. Qısa bir zamanda cənub istiqamətində Füzuli rayonu, Cəbrayıl rayonunun bir neçə kəndi işğaldan azad olundu. Mərkəz-şimala doğru istiqamətdə isə digər birləşmələrimiz strateji və taktiki yüksəkliklərə yiyələndi. Murov bizim üçün strateji mövqedir. Bununla yanaşı, növbəti günlərdə yenidən bir neçə yaşayış məntəqəsi düşməndən azad olundu. Rəşadətli Ordumuzun uğurları davam edir. Cəbrayıl, Füzuli rayonları, Hadrut qəsəbəsi və ətrafdakı neçə-neçə kəndlər azad olunub. Güclü və mətanətli Azərbaycan əsgəri yaxın günlərdə daha neçə-neçə kənd və şəhərlərimizə bayrağımızı sancacaq. Biz bu gözəl anları yaşamaqdan zövq alırıq.

***- Azərbaycan Ordusunun döyüş taktikası bütün dünyanı heyran edir. Sizcə müasir dövr müharibələri məhz belə aparılmalıdır?***

- Hərbi dildə desək, hazırkı döyüşləri lokal müharibə də adlandırmaq olar. Amma bizim üçün bu müharibə lokal xarakter daşımır. Biz Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşürük. Budəfəki müharibədə qoşunlardan elə də istifadə olunmur. Fikir versəniz, ilk günlər cənub istiqamətində əməliyyatlar keçirildi. Ordumuz şimal istiqamətində qeyd etdiyimiz kimi, bir sıra əhəmiyyətli yüksəklikləri ələ keçirdi. Bunu klassik döyüş taktikası kimi adlandırmaq olar. Sonradan Azərbaycan Ordusu XXI əsr müharibələri taktikasından istifadə edir. Azərbaycan Müdafiə Nazirliyi tərəfindən təqdim edilən video-görüntülərə diqqət yetirsək görərik ki, səmadan aşkar edilən hədəflər bir neçə saniyədən sonra məhv edilir. Buradan aydın olur ki, reaktiv mərmi sistemləri hədəfin yanına deyil, düz üzərinə düşür. Bu nəyi göstərir? Azərbaycan Silahlı Qüvvələri hazırda müasir və dəqiq silahlara malikdir. Biz həmin silahların vasitəsilə düşmənə xeyli zərər vurmuşuq. Onların silah arsenalı demək olar ki, məhv edilib. Ermənilərin vəziyyəti çox ağırdır. Azərbaycan əks-hücum əməliyyatlarına başlayanda onlar səfərbərlik elan etdilər. Çox keçmədi ki, yaşı 70-ə yaxın olanları səfərbərliyə çağırdılar. Tədricən vaxt limitini tamam götürdülər. Könüllüləri, keçmiş döyüşçüləri orduya cəlb etdilər və s. Bu bədbəxtlər başa düşmürlər ki, güclü Azərbaycan ordusu qarşısında məğlub olacaqlar. Onlar artilleriyanı da döyüş xəttinə gətirə bilmir. Belə olduğu təqdirdə tərəfimizdən həmin mövqelər aşkar olunur və havadan endirilən zərbələrdən qurtulmaq olmur.



***- Ermənilərin taktikası bu müharibədə nədən ibarətdir?***

- Ermənilər ilk gündən hiss etdilər ki, Azərbaycan Ordusu ilə bacara bilməyəcəklər. Onlar Ordumuzun müasir silahlarına qarşı müharibədə aciz qaldılar. Düşmən ölkənin zəif iqtisadiyyatı imkan vermir ki, bizim kimi belə bir güclü silahları öz arsenalına toplasın. Düşmən çıxış yolunu cəbhə xəttində olan yaşayış məntəqələrini atəşə tutmaqda görür. Bu da onların müharibədə hansı taktikanı seçmələrinə nümunədir. Onların silahlı birləşmələri əvvəlcə Tərtər, Ağdam, Ağcabədi, Beyləqan, Füzuli, Cocuq Mərcanlı (Cəbrayıl) ərazilərini hədəf seçdilər. Hətta Mingəçevirə risk edib, raket zərbələri endirmək istədilər. Onların bu cəhdi uğursuz oldu. Lakin ölkənin ikinci böyük şəhəri olan Gəncəyə raket zərbəsi endirməyə müvəffəq oldular. Böyük itkilərlə barışmayan erməni ordusu bu yaxınlarda oktyabrın 11-də Gəncəyə Vardenis (Basarkeçər) istiqamətindən əməliyyat-taktiki raketləri atdılar. Bu isə dinc əhali arasında itkilərə səbəb oldu. Onlar həmin ərəfədə əməliyyat-taktiki raketlərin start xəttinə gətirdilər. Ordumuz onlara nəzarət edirdi. Tərəfimizdən həmin silahlar yerindəcə məhv edildi. Bununla da Gəncəyə növbəti raket zərbəsinin qarşısı alındı. Lakin Ermənistan silahlı qüvvələri beynəlxalq hüquqa zidd olaraq oktyabrın 17-də Gəncə şəhərini "SCUD-/Elbrus" əməliyyat-taktiki ballistik raketlərlə yenidən hədəfə aldı. Onların bu təxribatı yenidən dinc əhali arasında itkilərə və xəsarət almaya gətirib çıxardı. Onlar artıq Ordumuzun qüdrəti və rəşadəti qarşısında tab gətirə bilmir. Ermənistan tərəfi yaxşı başa düşür ki, Azərbaycan bu müharibədə qalib tərəfdir. Lakin özlərinin ənənəvi çirkin əməllərindən çəkinmirlər. Onlar cəbhə xəttinə yaxın ərazilərə zərb endirməklə panika yaratmağa çalışırlar. Lakin biz onların bu istəyinə çatmasına mane oluruq. Erməni təxribatı bizi sarsıtmır. Əksinə hər bir azərbaycanlı bugünlərdə öz Ali Baş Komandanı, düşmənlə üz-üzə dayanan qəhrəman əsgərilə qurur duyur. Biz əminik ki, yaxın günlərdə xoş müjdəli xəbərlərin sayı daha çox olacaq.

***- Ordumuzun azad etdiyi zirvələrin əhəmiyyəti barəsində nə deyərdiniz?***

- Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsi azad olunduqdan sonra Ordumuz böyük bir əraziyə nəzarət edir. Ermənistan ərazisindən, Kəlbəcərdən, Sərsəng su anbarı, Suqovuşan tərəfdən ehtiyatın və hərbi yüklərin gəlməsi Murov yüksəkliyindən aydın görünəcək. Cənub istiqamətində xeyli irəliləyən Ordumuz İranla dövlət sərhədini birləşdirən ərazini işğaldan azad edib. Murovun strateji əhəmiyyəti hesab edirəm ki, bu saydıqlarımı qismən də olsa, özündə ehtiva edir.

### "Sərkərdə güclü olmasa, əsgərdə olan o ruh heç bir səmərə verə bilməz"

***- Birinci Qarabağ müharibəsindən bu günə kimi xeyli vaxt keçib. Bu müddət ərzində Azərbaycan Ordusunda daha nə dəyişdi?***

- Mən bir məsələni qeyd etmək istəyirəm. Nə qədər güclü silah olsa da, orduda hər zaman insan amili üstün tutulur. Bu dünya ordularının əsas prinsipidir. Müasir tankın varsa belə, hazır olmayan heyətlə heç nəyə nail ola bilməzsən. Birinci Qarabağ müharibəsində də xalq rəşadətlə vuruşdu. Xeyli yaşayış məntəqələrini geri qaytardıq.

Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə hər bir sahədə olduğu kimi, Ordu quruculuğunda da formalaşma başladı. Ulu öndər yaxşı bilirdi ki, ordu nə vaxt güclü olur. Əgər Ordunun yüksək hazırlıqlı zabitləri varsa, güclü ordu qurmaq mümkün olacaq. Ümummili lider özünün 70-ci illərdə hərbi məktəblərə qəbul etdirdiyi azərbaycanlıları bir araya topladı. Onları rəhbər vəzifələrə təyin etdi. Hamısına deyirdi ki, siz mənim zabitimsiniz. Bizimlə söhbət zamanı o, hər birimizi yaxından tanıdığını bildirmişdi. Kimin nə vaxt hərbi məktəb bitirdiyini dəqiq bilirdi. Bizdə hər zaman vətənpərlik ruhu olub. Sərkərdə güclü olmasa, əsgərdə olan o ruh heç bir səmərə verə bilməz. Mən əminliklə deyirəm ki, Azərbaycan Ordusunun bu gün güclü olmasında Ümummilli lider Heydər Əliyevin böyük xidmətləri var. Bu gün onun siyasi kursunun layiqli davamçısı Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev o vaxt ulu öndərin yaradıb təməlini qoyduğu ordunu elə bir yüksək səviyyəyə gətirib çıxarıb ki, dünyanın aparıcı KİV-ləri, hərbi analitik informasiya agentlikləri Azərbaycan Ordusuna yüksək qiymət verirlər. Müasir silahlara və dəmir intizama malik Ordumuz hazırda torpaqlarımızı düşməndən azad edir. Dəyişən budur.

### "Görərsən, mənim əsgərim qalib gələcək"

***- Hərbidən başqa daha hansı sahələrə maraq göstərirsiniz?***

- Hərb sahəsi mənim həyat tərzimdir. Lakin digər sahələrə də maraq göstərirəm. Kitabları sevirəm. Mütaliə etməkdən zövq alıram. İdmana da böyük həvəsim var. Azərbaycan idmançılarının uğurları məni sevindirir. Hələ gənc yaşlarımda olanda "Neftçi" komandasının futbolçularına azarkeşlik edirdim. Sizdən eşitdim ki, "Neftçi"nin əfsanəvi futbolçularından olan Kazbek Tuayevlə birlikdə eyni binada işləyirsiniz. Çox istərdim ki, Kazbek Tuayevlə görüşüm. Qeyd etdiyim kimi, idman yarışlarını yaxından izləməyə çalışıram.



2008-ci ildə Pekində keçirilən Yay Olimpiya və Paralimpiya Oyunlarını arenalarda canlı izləmişəm. Həmin vaxt Çin Xalq Respublikasındakı Azərbaycan Səfirliyində hərbi attaşe idim. Fürsət tapıb Azərbaycan idman nümayəndə heyəti ilə görüşüb, idmançılarımızın görüşlərini izləyirdim.

***- Cənab general, güclü, qüvvətli və peşəkar idmançılar ordu sıralarında da digərlərindən seçilirlər. Əsgərləriniz arasında peşəkar idmançılar olubmu?***

- İkiqat paralimpiya çempionu olan İlham Zəkiyevi az adam olar ki, tanımasın. İlham Zəkiyev mənim əsgərim olub. Biləndə ki, bizim idmançılarımızın görüşü var, həmin vaxt özümü arenaya çatdırdım. Həmin gün paracüdo yarışlarının final qarşılaşmaları keçirilirdi. Səhv etmirəmsə, həmin gün üç idmançımız qızıl medal uğrunda yarışırdı. İki cüdoçumuz finalda braziliyalı və rusiyalı rəqibi ilə bacarmadı. Mən İlhamın görüşünü səbrsizliklə gözdüyürdüm. Övladımla birlikdə idim. O, mənə dedi ki, sənin əsgərin gəlir. Dedim ki, görərsən, mənim əsgərim qalib gələcək. Tatamiyə çıxandan bir neçə saniyə sonra o, çinli rəqibini "ippon"a saldı. Rəqibi qolları arasına salan İlham Zəkiyev çinlini buraxmırdı. Məşqçi Əhməddin Rəcəbli İlhamdan onu buraxmağı tələb etsə də, mənim əsgərim inadından əl çəkmirdi. Zalda olan 23 minə yaxın çinli susmuşdu, yalnız 20-25 nəfər azərbaycanlının səsi gəlirdi. Nəhayət İlham "ippon" etdiyindən əmin olduqdan sonra rəqibini buraxdı. Zaldakı azarkeşlərin hamısı mənim əsgərimin qələbəsini ayaqüstə alqışladı. Sevincdən ağlamaq istədim, lakin özümü ələ aldım. Yarışdan sonra onunla görüşdüm. O məndən çıxışı barədə soruşanda, dedim ki, sən əsl döyüşçüsən. Azərbaycanın güclü Ordusu kimi, güclü idmançıları da var. Mən hesab edirəm ki, idman və bədən tərbiyəsi hər bir insanın həyat tərzinə çevrilməlidir. Çünki idman insanı həm fiziki, həm də mənəvi cəhətdən hazırlıqlı edir. Ordu sıralarında da idmana xüsusi diqqət yetirilir. Hər bir əsgər və zabit fiziki cəhətdən sağlam olmalıdır. Bu sonradan təlim və döyüşlərdə öz sözünü deyir.

***Aslan Şirəliyev,***
***Anar Əhmədov***



# Qarabağ Azərbaycandır!

***Ali Baş Komandan, cənab İlham Əliyevin uğurlu siyasəti və Ordumuzun şücaəti sayəsində torpaqlarımız işğalçılardan azad edilir. Hər bir Azərbaycan vətəndaşı bu gün döyüşlərdən danışır, ardıcıl qələbələr münasibətilə bir-birini təbrik edir. Ölkənin hər bir yerində üçrəngli bayrağımız zəfər nümunəsinə çevrilib. Beynəlxalq arenalarda ən yüksəkdə dalğalanan Azərbaycan bayrağı bu gün işğaldan azad olunmuş torpaqlarımızda dalğalanır.***

***Azərbaycanda idmanın və Olimpiya Hərəkatının təbliğində özünəməxsus rolu olan "Olimpiya dünyası" qəzeti də döyüşlər başlayan gündən etibarən çoxsaylı oxucularına ordumuzun qələbə soraqlarını çatdırır. İdman ictimaiyyətinin qələbə sevincini və onların arzularını öyrənmək üçün əməkdaşlarımız idman federasiyaları, idmançılarla və idman ictimaiyyətinin nümayəndələrilə əlaqə saxlayır. Bu sayımızda da ənənəyə sadiq qalaraq, həmin fikirləri təqdim edirik.***

# İdman ictimaiyyəti qələbə sevincini "Olimpiya dünyası" ilə bölüşür

## "Düşmənin əl atdıqları təxribatlar bizim zəfər çalmağımıza mane ola bilməz"

***Lyudmila Şubina (Olimpiya çempionu):***



- Qarabağ Azərbaycandır! Bu, hər zaman belə olub. Bunu kiməsə sübut etməyə ehtiyac yoxdur. Bu bir faktdır. Ermənilərin bunun əksini deməsi sadəcə təxribatdır. Düşmənin əl atdıqları təxribatlar, dünyaya yaydıqları yalan məlumatlar bizim zəfər çalmağımıza mane ola bilməz. Ölkənin ikinci böyük şəhərinin Gəncənin düşmən tərəfindən raket atəşinə tutulmasını ifadə edəcək söz tapmıram. Mən düşməni yalnız faşistlərlə müqayisə edə bilərəm. Amma əslində ermənilər daha pisdirlər. Lakin bizim Ordumuz haqq yolundan dönməyəcək. İllərdir düşmən tapdağında qalan torpaqlarımız azad ediləcək. Bu torpaqların əsl sahibləri evlərinə qayıdacaqlar.

## "Dinc insanlara edilən vəhşiliyi sözlə ifadə etmək mümkün deyil"

***Rəfiqə Şabanova (Olimpiya çempionu):***



- Dağlıq Qarabağ hər zaman Azərbaycan ərazisi olub. Yadımdadır ki, Xankəndidə və digər şəhərlərdə təşkil olunan respublika çempionatları, respublika kuboku yarışlarında mübarizə aparırdıq. Bu torpaqların əsl sahibləri artıq doğma şəhərlərinə, kəndlərinə qayıtmaq istəyirlər. Şübhəsiz ki, biz tezliklə buna nail olacağıq. Belə ki, şanlı Ordumuz artıq hissə-hissə torpaqlarımızı azad edir. Bir məqamı da vurğulayım ki, Azərbaycan hər zaman tolerant dövlət olub. Ölkəmizdə ermənilər də daxil olmaqla, müxtəlif millətlər mehriban şəkildə yaşayıb. Lakin edilən hörməti, yaşamaq üçün verilən şansı qiymətləndirməyən, özgə əraziləri mənimsəmək arzusunda olan insanlar peyda olduqda, müharibə başlayır. Bundan əlavə ermənilərin Gəncənin mülki vətəndaşlarına etdiyi vandalizm də insanı dəhşətə gətirir. Həqiqətən də, dinc insanlara edilən vəhşiliyi sözlə ifadə etmək mümkün deyil. Amma biz haqq yolundayıq və düşmənin bu oyunları bizi geri çəkə bilməz. Mən əminəm ki, tezliklə Ordumuz düşməni əzəli torpaqlarımızdan qovacaq və Azərbaycan xalqı üçün yeni bir şanlı səhifə açılacaq.

## "Azərbaycan vətəndaşı olan igid oğullarımız rəşadətlə döyüşürlər"

***Nazir Rəhimov (MOK-un əməkdaşı, Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi):***



- Tarixən bilirik ki, ermənilər bütün dünya xalqlarını öz yalanları, iftiraları, qarayaxmaları ilə çaşdırmağa çalışıblar. Məqsədləri də onlara yaxşılıq edən, yaşamağa yer və şərait yaradan xalqların torpaqlarını mənimsəmək olub. Sentyabrın 27-də ermənilər təxribat edərək atəşkəs rejimini pozaraq, yeni torpaq və ərazi xülyası ilə ölkəmizə hücum edib. Hazırda Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəbhə xəttində uğurla irəliləyir, torpaqlarımızı azad edir. Biz heç kimin torpağını işğal etməmişik. Müharibə bizim torpaqlarda gedir və dinc əhaliyə güllə atmırıq. Ermənilər isə dinc əhali yaşayan bölgələrə-Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə və cəbhə xəttindən uzaq olan digər bölgələrə atəş açırlar. İnsanlığa sığmayan bu bədnam əməllər Ermənistan dövlətinin terrorçu xüsusiyyətini aşkara çıxarır. Şübhə yoxdur ki, müzəffər Ordumuz tərəfindən erməni işğalçıları torpaqlarımızdan qovulacaq və onlar törətdikləri vəhşiliklərə, hərbi cinayətlərə və terrora görə cavab verəcəklər.

Bu gün millətindən, dini mənsubiyyətindən asılı olmayaraq torpaq uğrunda döyüşlərdə Azərbaycan vətəndaşı olan igid oğullarımız rəşadətlə döyüşürlər. Onlar bu günün qəhrəmanlarıdırlar. Təəssüf ki, müharibədə şəhid olan igid oğullarımız da var. Şəhidlik Allah məqamında ən yüksək zirvədir. Qurani-Kərimdə buyurulur ki, "Şəhidlərə ölü deməyin. Onlar diridirlər. Allah süfrəsindən ruzi yeyirlər". Vətən torpağı uğrunda öz canlarından keçib şəhid olanlarla biz fəxr edirik. Onların ruhu qarşısında baş əyir, valideynlərinə, əzizlərinə başsağlığı veririk. Onların xatirəsini nə qədər əziz tutsaq da, adlarını nə qədər əbədiləşdirsək də, borclarından çıxa bilmərik. Çünki onlar Azərbaycan Respublikasının torpaqlarının işğaldan azad olunması və Vətənimizin bütövlüyü, xalqımızın rahat, firavan yaşaması uğrunda şəhid olublar. Hesab edirəm ki, Azərbaycanda yaşayan bütün xalqlar azərbaycanlıdırlar. Bir az da dərindən fikirləşsək qarabağlıdırlar. Qarabağ Azərbaycanın bölünməz hissəsidir. Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi: "Qarabağ Azərbaycandır!"

## "Müzəffər Ordumuz ölkəmizin qəhrəmanlıq tarixinin yeni səhifələrini yazır"

***Fazil Hadıbəyov ("Zenit" İdman Cəmiyyəti Respublika Şurasının sədri, Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi):***



- Yaşadığımız dövr Azərbaycan xalqı üçün çox qürurlu və sevindiricidir. Düşmən tapdağı altında olan doğma torpaqlarımız azad edilir. Müzəffər Ordumuz ölkəmizin qəhrəmanlıq tarixinin yeni səhifələrini yazır. Ali Baş Komandanımızın da dediyi kimi, biz sona kimi gedəcəyik və torpaqlarımızı işğalçılardan azad edəcəyik. İllərdir Azərbaycan bu məsələnin sülh yolu ilə həll olunacağına ümid edirdi. Lakin görürük ki, dünya birliyi bu məsələyə ciddi yanaşmadı və işğalçı ölkə Azərbaycan torpaqlarını geri qaytarmadı. Ermənistan silahlı qüvvələri müharibədə Ordumuza məğlub olduqları üçün bütün çirkin və insanlığa sığmayan yollara əl atır. Ölkənin ikinci ən böyük şəhərinin mülki əhalisinə raket zərbələri endirməsi, Mingəçevir və digər şəhərlərə mərmilərin atılması bunun bariz nümunəsidir.

Bu gün ölkəmizin idmançıları da cəbhə bölgəsində Ordu sıralarında yer alıblar. Azərbaycan yığma komandasının güləşçisi, Avropa və dünya çempionu, müxtəlif beynəlxalq yarışlarının və respublika çempionatının qalibi, "Zenit" İdman Cəmiyyətinin yetirməsi Əfqan Xaşalov torpaqlarımızın bütövlüyü uğrunda hərbçilərimizlə birgə çiyin-çiyinə mübarizə aparır. Vətən müharibəsi adlandırdığımız bu savaş xalqımızı, sözün əsl mənasında, bir yumruq kimi birləşdirdi. Düzdür, övlad itirmək çox çətindir, amma onların valideynləri də bu gün "Vətən sağ olsun" deyirlər. Mənim 65 yaşım olmasına baxmayaraq, bu gün lazım olsa, müharibəyə gedərəm. Çünki Vətən müqəddəsdir və bizim borcumuz onu işğalçılardan azad etməkdir. Təəssüf ki, müharibədə itkilər qaçılmazdır. Vətən uğrunda şəhid olan əsgərlərimizə Allahdan rəhmət diləyir, yaralılara isə tezliklə şəfa tapmasını arzulayıram. Biz də öz növbəmizdə Ordumuza əlimizdən gələn dəstəyi göstəririk. Xalqımızda həqiqətən də çox böyük ruh yüksəkliyi var. İnsanlarımız səbirsizliklə doğma torpaqlarına qayıtmaq, dünyasını dəyişən yaxınlarının qəbirlərini ziyarət etmək istəyirlər. Qələbə bizimdir!

## "Arzu edirəm ki, azad olunan torpaqlarımızda "Qarabağ kuboku" adlı beynəlxalq turnir təşkil edək"

***Yaşar Başirov (Azərbaycan Milli Karate Federasiyasının prezidenti):***



- Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib və hər kəs öz vətənpərvərliyini bir daha sübut edir. Xalqımızda olan birlik, güc, həqiqətən də, qürurverici və möhtəşəmdir. Birlik isə bildiyiniz kimi, hər bir maneəni məhv etməyə qadirdir. Biz də Azərbaycan Karate Federasiyası olaraq, çalışırıq Ordumuza hər bir mənada dəstək olaq. Düşünürəm ki, bu, hər bir vətəndaşın borcudur və hər kəs öz sahəsində əlindən gələni etməyə çalışır. Belə ki, bura bizim doğma Vətənimizdir və əsgərlərimiz torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşürlər. Azərbaycanın rəşadətli Ordusu ilə fəxr edirəm. Federasiyamızın da hər bir nümayəndəsi, hər an torpaqlarımızın azadlığı uğrunda cəbhəyə yollanmağa hazırdır. Sözsüz ki, xalqımız böyük ruh yüksəkliyi ilə dövlət başçımızın, Ali Baş Komandanımızın əmrinə təbedir. Ölkə başçımız öz çıxışları ilə bütün dünyaya səs salıb və həqiqətən də, lider olduğunu bir daha sübut etdi. Bildirim ki, Azərbaycan Karate Federasiyasının idmançıları arasında da Ordumuzun sıralarına qoşulanlar var. Həmçinin karateçilərimiz arasında yaralılar və şəhid olanlar da var. Kədərli olsa da, müharibədə şəhidlərin də olması qaçılmazdır. Buna görə də, mən şəhid zirvəsinə ucalan əsgərlərimizə və zabitlərimizə Uca Tanrıdan rəhmət, yaralılara şəfa diləyirəm. Əminəm ki, biz tezliklə düşmən üzərində qələbə çalacağıq və dədə-baba torpaqlarımızı azad edəcəyik. Həmçinin arzu edirəm ki, azad olunan torpaqlarımızda "Qarabağ kuboku" adlı qələbə əhval-ruhiyyəli beynəlxalq turnir təşkil edək və bütün dünya Dağlıq Qarabağın əsl sahiblərini tanısın.

## "İnanırıq ki, şanlı Ordumuz tezliklə bütün işğal olunmuş torpaqlarımızı azad edəcək"

***Orxan Abbasov (Azərbaycan Həndbol Federasiyasının birinci vitse-prezidenti):***



- Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi təxribatlar, vəhşiliklər illərdir davam edir. Düşmənin növbəti təxribatı zamanı cəbhə bölgəsində vəziyyət gərginləşdi. Buna adekvat cavab olaraq isə Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirdi. Sevindirici haldır ki, hazırda bizim rəşadətli Ordumuz doğma torpaqlarımızı işğalçılardan azad edir. Cəbhə bölgəsində hərbçilərimizlə birgə düşmənə qarşı mübarizə aparanlar arasında idmançılar da az deyil. Təbii ki, Azərbaycan Həndbol Federasiyasının idmançılarından da Vətənimizin azadlığı uğrunda əsgərlərimizlə çiyin-çiyinə döyüşürlər. Həmçinin bildirim ki, Azərbaycan Həndbol Federasiyası yalnız idmançılara deyil, bütün Ordumuza əlindən gələn dəstəyi göstərir. Biz inanırıq ki, şanlı Ordumuz tezliklə bütün işğal olunmuş torpaqlarımızı azad edəcək və biz qələbə çalacağıq.

## "Əminəm ki, tezliklə azad olunan torpaqlarımızda üç rəngli bayrağımız dalğalanacaq"

***Ceyhun Məmmədov (Azərbaycan Sambo Federasiyasının prezidenti):***



- Uzun illərdir işğalda olan torpaqlarımızın hissə-hissə geri alınması çox böyük sevincdir. Bu, Azərbaycanın şanlı Ordusunun zəfəridir. Düşmənə qarşı şücaətlə vuruşan müzəffər Ordumuza cansağlığı, güc-qüvvət arzulayıram. Vətən uğrunda şəhid olan əsgərlərimizə isə Allah rəhmət eləsin deyirəm. Bu gün sambo üzrə əsas yığma komandamızın üzvləri arasında Ordu sıralarında döyüşən idmançılarımız var. Mən onlar da daxil olmaqla bütün hərbçilərimizin bu savaşdan qalib ayrılmasını və sağ-salamat ailələrinin yanına qayıtmasını arzulayıram.

Düşmənin müharibə ərazisindən uzaqda yerləşən Gəncə şəhərini hədəfə alması, günahsız vətəndaşların qətlə yetirilməsi vəhşilikdir. Təəssüf ki, Ermənistan silahlı qüvvələrinin törətdiyi qeyri-qanuni, heç bir qaydaya uyğun olmayan təxribatlarına dünya birliyi lazımi münasibət bildirmir. Nəticədə isə dinc sakinlər, körpə uşaqlar həlak olurlar. Lakin xalqımız inanır ki, düşmənə qalib gələcəyik.



# Qarabağ Azərbaycandır!

## Keçən illəri xatırlayarkən

Mən, 1974-cü ildə təyinatla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni (indiki Xocavənd) rayonuna təyinat aldım. Bir il rayonun Əmirallar kəndində bədən tərbiyəsi müəllimi işlədim. 1975-ci ildə isə Stepanakert (indiki Xankəndi) şəhərində yerləşən Nizami Gəncəvi adına 4 nömrəli orta məktəbə dəyişildim. 3 il orada işləməli oldum. 1975-1976-cı tədris illərində bədən tərbiyəsi müəllimi kimi 10-cu sinifə rəhbər təyin edildim. Həmin vaxt heç kim 10-cu sinifdə sinif rəhbəri işləmək istəmirdi. Ona görə ki, həmin sinifdə intizamsız uşaqlar var idi. Müəllimlərin əksəriyyəti qadınlar idi. Məktəbin direktoru Sabir Əliyev bir cavan kadr kimi məni sinif rəhbəri təyin etdi. Mən də necə lazımdırsa, elə də öz işimi görməyə başladım. Uşaqlarla tez-tez tərbiyəvi söhbətlər aparırdım. Bir qədər vaxt keçəndən sonra mən valideynlər iclası çağırdım. İclasda hər bir şagirdin valideyni ilə ayrı-ayrılıqda fərdi söhbətlər apardım. Zəif oxuyan şagirdlərin yaxşı oxumaları üçün hər cür şəraitin olması haqqında bəzi məlumatları onların diqqətinə çatdırdım.

İndiyə kimi yadımdadır, mən həmin iclasda bunları demişdim: “Bura Azərbaycandır! Burada yaşayan azərbaycanlılar ermənilərlə birlikdə işləyirlər. Gəlin görək onlar nə iş görürlər? Burada yaşayan azərbaycanlıların əksəriyyəti fəhlə işləyirlər və aşağı səviyyələrdə yaşayırlar. Düzdür, məktəblərdə bəzi kişi və qadınlarımız da işləyirlər. Onlara da yuxarıdan aşağı baxırlar. Əl-qol açmağa imkan vermirlər. Ola bilməz ki, bunların təsiri uşaqlarımıza keçməsin. Burada yalnız erməni millətindən olanlar böyük vəzifələrdə işləyirlər. Bu iş əksinə olmalıdır. Azərbaycanlılara biganə yanaşırlar. Bura Azərbaycan torpağıdır. Üstünlük bizə verilməlidir. Mən istərdim ki, bizim uşaqlar yüksək qiymətlərlə oxuyub ali təhsil alsınlar və gəlib öz ixtisasları üzrə burada böyük yaradıcılıq işləri görsünlər”. Bu çıxışdan sonra mən valideynlərə lazımi tapşırıqlar verib, iclası yekunlaşdırdım. Sən demə iclasdakı valideynlərin içərisində erməni millətindən olan qadınlar da var imiş. Yəni həyat yoldaşları azərbaycanlılar idi. Onu da qeyd edim ki, bu valideynlərin hamısı məndən yaşca çox böyük idi. Onda cavan idim, mənim 26 yaşım var idi.



Aradan bir qədər vaxt keçmişdi. Onu da bildirim ki, mən Şuşada yaşayırdım. Hər gün səhər tezdən, saat 6:00-da Şuşa avtovağzalından Tbilisiyə avtobus gedirdi. Mən həmin avtobusla o vaxtki Stepanakert şəhərinə gedirdim. Həmin avtobus düz mən işləyən məktəbin yanından keçirdi. 20 dəqiqəyə Şuşadan Stepanakertə çatırdı. Dərslər saat 8:00-də başlayırdı. Demək olar ki, mən işlədiyim məktəbə hamıdan tez çatırdım. Məktəb 2 növbəli idi. Mən 4-10-cu siniflərə dərs dediyim üçün 17:30-a qədər məktəbdə olurdum. Dərslər başa çatdıqdan sonra Şuşaya qayıdırdım.

Həmin valideyn iclasından bir xeyli vaxt keçmişdi. Axşamtərəfi dərsdən çıxandan sonra evimizə Şuşaya qayıtdım. Evə çatmışdım ki, rəhmətlik atam əsəbi halda əlindəki zərfin içərisində olan çağırış vərəqəsini mənə göstərdi. “Nə iş görmüsən ki, sənə Vilayət Dövlət Təhlükəsizlik Komitəsindən çağırış gəlib?”, - deyə hirsləndi. Bu an mən özümü itirdim. Bilmədim ki, bu nədir. Dedim ata, mən heç bir şey etməmişəm. Görəsən nə olub ki, məni çağırıblar. Atam bir az sakitləşdi. Mən isə nə qədər fikirləşdim, ağlıma bir şey gəlmədi. Həmin gecə yata bilmədim səhərə qədər düşündüm ki, görəsən nə olub? Bir şey yadıma düşmədi.

Səhər tezdən həmişəki kimi işlədiyim məktəbə gəldim və dərsim olduğu üçün direktora vəziyyəti danışdım. Oaradan çıxıb, Vilayət Dövlət Təhlükəsizlik Komitəsinə gəldim. Qapıda dayanmış növbətçiyə qəbzi göstərib, içəri keçdim. Bir qədər keçdikdən sonra məni komitənin 1-ci müavini (milliyyətcə rus idi, adı yadımda qalmadı, rütbəsi mayor idi - Ə.N) məni qəbul edib, əyləşmək üçün yer göstərdi. Sonra masanın üstünə bir maqnitafon qoydu. Mikrofonu mənə tərəf uzatdı və dedi: “Mən sənə suallar verəcəyəm, sən isə mənə düzgün cavab verməlisən. Əgər yalan danışsan, sənə cinayət işi qaldıracağam”. Mən isə cavabında dedim ki, axı bilmirəm məni bura niyə çağırmısınız? Mən nə etmişəm, O isə cavabında dedi ki, sən böyük bir səhv yol vermisən və başladı maqnitafonu işə salmağa, təbii ki, biz rus dilində danışırdıq.

“Sən işlədiyin məktəbdə valideyn iclasında dediyin bu sözlər yadındadırmı, bura Azərbaycan torpağıdır, kişilərimiz fəhləlik edirlər, acınacaqlı vəziyyətdə yaşayırlar. Ermənilər sizə yuxarıdan aşağı baxırlar, bu işlərdən tamamilə qurtarmaq lazımdır. Sən bilirsən ki, belə sözlərlə millətçilik toxumları səpirsən, iki milləti qarşı-qarşıya qoyursan, ədavət salırsan? Bilmirsən ki, bu sənə baha başa gələr. Cavan oğlansan. Özünə yazığın gəlsin. Məhv ola bilərsən. Sənə millətçi damğası vurub, cinayət işi qaldırarlar”, - deyə mayor mənə hədə-qorxu gəldi.

Mən tutuldum, bilmədim nə deyim. Düzünü deyim ki, özümü itirmişdim. Amma, bir neçə saniyədən sonra bir qədər toxtadım, ürəkləndim. Mən vilayət, hətta Respublika səviyyəli idmançı olmuşam. Demək olar ki, bir neçə idman növü üzrə - idman gimnastikası, voleybol, futbol, basketbol, stolüstü tennis, atletika üzrə vilayət yarışlarında müvəffəqiyyətlə çıxış etmişəm. Keçirilən yarışlarda yalnız ermənilərin ikiüzlülüyünü, yaltaqlıqlarını, yalançılıqlarını, xainliklərini, haqsızlıqlarını, millətçiliklərini görmüşəm. Onlar ən alçaq hisslərə malikdirlər. Bunları yadıma salıb, bir az əsəbi halda sözlərimi deyə bildim. Dedim, mən Dağlıq Qarabağın bütün şəhər və rayonlarını həm gəzmişəm, həm də müxtəlif idman növləri üzrə yarışlarda müvəffəqiyyətlə çıxışlar edib, əksər vaxtlarda qalib olmuşam. Qaldığımız mehmanxanalarda, gəzdiyimiz küçələrdə, parklarda çoxlu şüarlar asılıb. O, şüarların biri belə Azərbaycan dilində deyil. Həmin ərazilərdə bir nəfər Azərbaycan şairlərinin, yazıçılarının, azərbaycanlı Sovet İttifaqı Qəhrəmanlarının, o cümlədən Azərbaycanın görkəmli şəxsiyyətlərinin birinin də nə adına, nə də heykəllərinə rast gəlmək olmur. O cümlədən Stepanakert şəhərində Azərbaycan dilində heç bir şüar yazılmayıb. Yazılanların da hamısı əvvəl erməni dilində, sonra isə rus dilində



yazılıb. Mən ona görə dedim ki, bura Azərbaycan torpağıdır. Erməni torpağı deyil. Bu sözləri deyəndən sonra həmin mayor tez maqnitafonu bağladı. Mən əməlli-başlı özümdən çıxmışdım. Sanki təhlükəsizlik komitəsində yox, başqa bir yerdə idim. O, məni sakitləşdirmək üçün stolun üstündəki qrafindən stəkana su süzüb, mənə uzatdı. O, özü də bildirdi ki, mən düz deyirəm. Sonra o, mənə dedi ki, hesab et ki, sən bura gəlməmisən, bizim öz aramızda belə söhbətimiz də olmayıb. Gedə bilərsən, deyib stolun üstündəki haqqımda yazılan şikayətləri götürüb cibinə qoydu. Yarı ciddi, yarı mülayim halda dedi ki, lazım gəlsə, səni bir də çağıracağıq.

Mən otaqdan sanki qalib kimi çıxdım. Qapıdan çıxanda atamın binanın qarşısında dayandığını gördüm və daha da ürəkləndim. Sonra mən olan söhbəti atama danışa-danışa, taksiyə əyləşdik və birbaşa Şuşaya gəldik. Səhərisi günü mən yenə əvvəlki kimi öz işimə qayıtdım.

Artıq mən 1978-ci il oktyabr ayının 16-da doğulduğum doğma şəhərim olan Şuşaya dəyişildim. Şuşa rayon Maarif Şöbəsinin nəzdində fəaliyyət göstərən Uşaq-Gənclər İdman Məktəbində məşqçi-müəllim kimi pedaqoji işimi davam etdirməyə başladım.

Aradan 7-8 il keçmişdi. Uşaq-Gənclər İdman Məktəbinin direktoru vəzifəsində işləyirdim. Tez-tez Bakıya, iclaslara və tədbirlərə dəvət alırdım. Bir gün yenə Bakıya gəlirdim. Belə qərara gəldim ki, Xocalıdan Bakı şəhərinə uçan təyyarə ilə gəlim. Saat 15:00-da təyyarə uçmalı idi. Onda “YAK-40” təyyarəsi Xocalı-Bakı istiqamətində uçurdu. Mən təyyarənin 1-ci oturacağında əyləşmişdim. Cəmi 27-nəfərlik oturacağı var idi. Bütün yerlər dolmuşdu. Təkcə mənim yanımdakı yer boş idi. Təyyarə bir neçə dəqiqə ləngiməli oldu. Bir də gördüm ki, təyyarə bələdçisi bir nəfər rus millətindən olan kişiyə yanımda olan boş yeri göstərdi. O, mənim yanımda oturmalı oldu. O dəqiqə onu tanıdım. Həmin Vilayət Dövlət Təhlükəsizlik Komitəsində mənimlə sorğu-sual edən mayor idi. Bir qədər uçduqdan sonra mən ondan soruşdum. Siz məni tanımadınız? O, gülümsəyərək mənə tərəf əyilib dedi, səni tanımamaq olar. Lap yaxşı tanıyıram. Biz Bakıya çatana qədər (45-dəqiqəlik yol idi) mehriban söhbət etdik. Onun yükü çox idi. O, işdən azad olunub, Rusiyaya gedirdi. Ondan ayrılanda o, mənə Azərbaycan dilində dedi: “Sən o vaxt hər şeyi düz deyirdin!” O, elə danışdı ki, sanki azərbaycanlı idi...

*Əbülqasım Novruzov,*
*Şuşa Uşaq Gənclər İdman-Şahmat Məktəbinin direktoru*

## Fiqurlu konkisürənimiz gümüş medal qazandı

Sankt-Peterburqda keçirilən fiqurlu konkisürmə üzrə beynəlxalq turnirdə qadınların yarışına yekun vurulub. Azərbaycan təmsilçisi Yekaterina Ryabova sərbəst proqramda birinci yeri tutub. Lakin iki çıxışın yekununda 184,49 xal toplayan idmançımız gümüş medal ilə kifayətlənib. Turnirin qalibi adına isə rusiyalı Yelizaveta Nuqumanova sahib olub. O, 187,16 xal toplayıb.

Qeyd edək ki, kişilərin yarışında digər təmsilçimiz Vladimir Litvintsev mübarizə aparır.

## Cüdoçularımız “Böyük dəbilqə” turnirində iştirak edəcəklər

Oktyabrın 23-25-də Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə “Böyük dəbilqə” turniri keçiriləcək. Uzun fasilədən sonra təşkil olunacaq turnirdə Azərbaycan cüdoçuları da qüvvələrini sınayacaqlar. Komandamızın heyətində 17 cüdoçu yer alıb. Kərəmət Hüseynov, Davud Məmmədsoy (hər ikisi 60 kq), Nicat Şıxəlizadə, Orxan Səfərov (hər ikisi 66 kq), Rüstəm Orucov, Telman Vəliyev (hər ikisi 73 kq), Hidayət Heydərov, Murad Fətiyev (hər ikisi 81 kq), Məmmədəli Mehdiyev, Rüfət İsmayılov (hər ikisi 90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq), Uşangi Kokauri və Camal Feyziyev (+100 kq) kişilərin yarışında mübarizə aparacaqlar.

Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva (52 kq) qadınlar arasında təşkil edilən yarışda qüvvələrini sınayacaqlar.

Qeyd edək ki, yarışda idmançılar Tokio-2020 Olimpiadasına reytinq xalları da qazanacaqlar. Yarışda 80 ölkədən 624 cüdoçu iştirak edəcək.

## Qarabağdan



Şikar İsmayıl oğlu Məstəli 1939-cu ildə Cəbrayıl rayonu Quycaq kəndində anadan olub. Şərqşünas-fars dili tərcüməçisidir. İran və Əfqanıstanda tərcüməçi işləyib. Bir neçə şeir kitabının, elmi tərcümələrin və fars klassik ədəbiyyatından tərcümə etdiyi yazıların müəllifidir. Şikar Məstəli indi 81 yaşındadır. O, anadan olduğu Quycaq kəndinə, yenicə azad olunan Cəbrayıla yola düşmək üçün günləri, saatları sayır. Çoxminli oxucularımıza Şikar Məstəlinin “Qarabağdan” şerini təqdim edirik.

Sən ey igid əsgər, sən ey mərd oğul,
Düşmənin əlini üz Qarabağdan!
Qalib addımlarla keç qarış-qarış,
Dağlıq Qarabağdan, Düz Qarabağdan!

Qızıl bir bayrağa döndər qəddini,
Göstər sən yağıya, göstər həddini,
Dağıdıb, tapdayıb düşmən səddini,
Vüqarla dünyanı süz Qarabağdan!

Zəfər bayramına dünyanı hayla,
Şikar tonqal çatsın o Tay, bu Tayla,
Qadir əllərinlə, əzminlə payla,
Hər sönən ocağa köz Qarabağdan!

*Şikar Məstəli*



## Gənclər və İdman Nazirliyinin kollektivi valideynlərini itirmiş bacı-qardaşı himayəyə götürüb

Gənclər və İdman Nazirliyinin kollektivi oktyabrın 10-dan 11-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində valideynləri Anar Əliyevi və Nurçin Əliyevanı itirmiş 16 yaşlı Sevili və qardaşı 8 yaşlı Hüseyni himayəyə götürüb.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, kollektiv Sevil və Hüseyn yetkinlik yaşlarına (18 yaş) çatana qədər onların 500 manatlıq (cəmi) aylıq təminat xərclərini üzərinə götürüb.



## Güləşçimiz qızıl medalını Ordumuza dəstək məqsədilə hərraca çıxardı

Yunan-Roma güləşi üzrə ikiqat Avropa çempionu və dünya ikincisi Rafiq Hüseynov maraqlı və vətənpərvər təşəbbüslə çıxış edib. Millimizin təcrübəli üzvü fevralda keçirilən qitə birinciliyində qazandığı qızıl medalı hərraca çıxarmağa hazırlaşdığını deyib: "Hər bir idmançı üçün ən dəyərli əşya onun yarışda qazandığı medaldır. Bu il ikinci dəfə Avropa çempionu oldum. Doqquz illik fasilədən sonra qazandığım qızıl medal mənim üçün çox dəyərlidir. Ancaq bu gün hər birimiz Vətənə və ordumuza dəstək üçün bütün fədakarlıqları etməyə hazır olmalı, böyük qələbəyə gedən yolda əlimizdən gələni əsirgəməməliyik".

R.Hüseynov təkcə bir idmançı və vətəndaş kimi deyil, həm də Silahlı Qüvvələrimizin zabiti kimi Romada qazandığı və onun üçün çox əziz olan qızıl medalı hərraca çıxarıb, medalın satışından əldə olunacaq məbləği Silahlı Qüvvələrə Yardım Fondunun hesabına köçürməyə hazırlaşdığını vurğulayıb.

## "Bakı Şəhər Halqası" Silahlı Qüvvələrə Yardım Fonduna dəstək olub

Formula 1 yarışlarının Azərbaycanda təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda Ordumuz tərəfindən həyata keçirilən uğurlu tədbirlərə dəstək kampaniyasına qoşulub. Şirkətin əməkdaşları könüllü olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 100 min manat məbləğində vəsait köçürüblər.

Şirkət ölkənin müdafiəsi və torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən mübarizədə hər bir vətəndaşın və qurumun Vətənə dəstəyinin vacib olduğunu hesab edir və Ordumuza daha böyük zəfərlər diləyir.

## Respublika Yüksək İdman Ustalıq Məktəbindən Ordumuza dəstək

Respublika Yüksək İdman Ustalıq Məktəbi (RYİUM) Milli Ordumuza dəstək məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə vəsaiti köçürüb.

Ali Baş Komandan cənab İlham Əliyevin komandanlığı altında tarix yazan, inamlı qələbəyə addımlayan Ordumuz artıq dünyada öz gücünü göstərir. RYİUM-un kollektivi Vətənimizin bütövlüyü uğrunda qəhrəmancasına mübarizə aparan, adını müasir tariximizə qızıl hərflərlə yazdıran şanlı Azərbaycan Ordusu ilə qürur duyduğunu bildirir. Məktəbin rəhbərliyi və kollektivi əmindir ki, Ordumuz hərbi əməliyyatları uğurla davam etdirəcək və ən qısa zamanda bizi tam qələbə xəbərləri ilə sevindirəcək.

## İqor Ponomaryov Gəncədəki terror hadisəsi ilə bağlı paylaşım edib

Futbol üzrə Olimpiya, yeniyetmələr arasında Avropa, gənclər arasında vitse dünya çempionu, SSRİ-nin Əməkdar məşqçisi İqor Ponomaryov Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində törətdiyi terror aktı ilə bağlı özünün sosial media hesabında paylaşım edib. İ.Ponomaryov paylaşımında 500 mindən çox insanın yaşadığı Gəncənin döyüş bölgəsindən uzaqda olduğunu bildirib. O, Ermənistanın düşünülmüş şəkildə reallaşdırdığı raket hücumunun dinc sakinləri qəfil yaxaladığını vurğulayaraq ölənlər arasında uşaq və qadınların olduğunu xüsusilə qeyd edib: "Bu, cinayətdir. Hətta müharibənin də öz qanunları var. Azərbaycan öz ərazilərində, tarixi torpaqlarını işğaldan azad etmək üçün mübarizə aparır", - deyə İ.Ponomaryov paylaşımında bildirib.



## Azərbaycan Voleybol Federasiyasının baş katibi CEV-in İdarə Heyətinə üzv seçilib



Azərbaycan Voleybol Federasiyasının (AVF) baş katibi Cəlil Cəfərov Avropa Voleybol Konfederasiyasının (CEV) İdarə Heyətinə üzv seçilib. Federasiyadan verilən məlumata görə, bu, Avstriya paytaxtı Vyanada 41-ci Baş Assambleya çərçivəsində baş tutan prezident seçkilərindən sonra rəsmiləşib. AVF-nin baş katibi səkkiz namizədin iştirak etdiyi ikinci mərhələdə 25 səs toplayıb. O, həlledici mərhələdə CEV prezidentliyinə namizədliyini irəli sürmüş estoniyalı Hanno Pevkura 12 səs fərqi ilə qalib gələrək, ilk dəfə CEV İdarə Heyətində üzvlüyünü rəsmiləşdirib.

## Albaniyalı futbolçu Gəncədə törədilən terror hadisəsini kəskin qınayıb

Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket zərbələri nəticəsində törətdiyi terror hadisəsinə "Qarabağ"ın sabiq futbolçusu Ansi Aqolli də etirazını bildirib. Hazırda ABŞ-ın "Nyu-York Kosmos" klubunda çıxış edən 38 yaşlı sol cinah oyunçusu bununla bağlı özünün "Instagram" səhifəsində paylaşım edib.




Albaniyalı müdafiəçi üzərində "Ganja Strong!" və "Pray for Ganja" (Gəncə güclüdür və Gəncə üçün dua edin) sözləri yazılmış foto paylaşıb.

Qeyd edək ki, A.Aqolli 2012-2019-cu illərdə "Qarabağ"ın formasını geyinib.

## Ölkəmiz Avropa çempionatı üçün namizədliyini irəli sürüb

Avropa Karate Federasiyası (EKF) rəhbərliyinin təşkilatçılığı və qitənin 30-dan artıq milli karate federasiyası rəsmilərinin iştirakı ilə növbəti videokonfrans keçirilib. Azərbaycan Karate Federasiyasından (AMKF) verilən məlumata görə, görüşdə qlobal pandemiya şəraitinin karatenin inkişafına mənfi təsirlərini azaltmaq və qarşıda nəzərdə tutulan yarışlarla bağlı müzakirələr aparılıb. Dünya Karate Federasiyası (WKF) və EKF-in prezidenti Antonio Espinosun sədrliyi ilə videoknfransa qitə təşkilatının İcraiyyə Komitəsinin üzvləri, o cümlədən AMKF-in prezidenti Yaşar Bəşirov, Hakimlər Komitəsi və Təşkilatın Komitəsinin rəsmiləri qatılıb. Pandemiyanın Avropa ölkələrində geniş yayılması səbəbindən 2021-ci ilin ilk yarısına nəzərdə tutulan qitə çempionatlarının keçirilməsinə də federasiya rəsmiləri münasibət bildirib.

2021-ci ilin fevralında Finlandiyanın Tampere şəhərində nəzərdə tutulan yeniyetmə və gənclər arasında Avropa çempionatı İcraiyyə Komitəsinin qərarı ilə avqust ayına keçirilib. Qitə çempionatında yaşları həmin tarixlərə uyğun gələn idmançılar iştirak edəcəklər. 2021-ci ilin mayında İsveçin Geteborq şəhərində planlaşdırılan Olimpiya lisenziyalı Avropa çempionatına aid müzakirələrdə, təşkilatçı ölkənin rəsmiləri yarışın keçirilməsi ilə bağlı bir sıra çətinliklərin yarandığını bildirib. Y.Bəşirov isə çıxışında qeyd edib ki, Azərbaycan bu məsul yarışı keçirməyə hazırdır. Federasiya prezidentinin təklifini dərhal 10 ölkənin rəsmiləri dəstəkləyib. Qarşıdakı Avropa çempionatının keçirilmə yeri ilə bağlı yekun qərar yaxın zamanlarda veriləcək.

## Azərbaycan Qran-Prisi aprel ayında keçirilə bilər

Formula 1-in 2021-ci il mövsümünün ilkin təqvimi açıqlanıb. Sayca 4-cü olan Azərbaycan Qran-Prisi aprelin 25-də keçirilə bilər. Dünya çempionatının birinci yarışının isə Bəhreyndə martın 14-də təşkili nəzərdə tutulub. Melburndakı mərhələ isə oktyabra təxirə salınıb. Mövsüm dekabrda Əbu-Dabi Qran-Prisi ilə başa çatacaq. Gələnilki mövsümdə dünya çempionatı çərçivəsində ümumilikdə, 22 Qran-Pri - Bəhreyn (14 mart), Vyetnam (28 mart), Çin (11 aprel), Azərbaycan (25 aprel), Niderland (2 may), İspaniya (9 may), Monako (23 may), Kanada (6 iyun), Avstriya (20 iyun), Fransa (27 iyun), Britaniya (11 iyul), Macarıstan (25 iyul), Belçika (29 avqust), İtaliya (5 sentyabr), Rusiya (19 sentyabr), Sinqapur (26 sentyabr), Yaponiya (10 oktyabr), Avstraliya (24 oktyabr), ABŞ (7 noyabr), Meksika (14 noyabr), Səudiyyə Ərəbistanı (28 noyabr), Əbu-Dabidə (5 dekabr) yarışları baş tutacaq.

## Məşhur futbolçu Azərbaycana dəstək nümayiş etdirib

Türkiyənin "Qalatasaray" klubunun futbolçusu Arda Turan Azərbaycana dəstək nümayiş etdirib. Azərbaycan Respublikasının dövlət bayrağı altında çəkilmiş fotosunu paylaşan 33 yaşlı yarımmüdafiəçi "Bir millət, iki dövlət" sözlərini qeyd edib. Təcrübəli futbolçu karyerası ərzində Türkiyənin "Qalatasaray", "Başakşəhər" komandaları ilə yanaşı, İspaniyanın "Atletiko" və "Barselona" klublarının da formalarını geyinib.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19